***Dərslərdə leksik və qrammatik şəkilçilərin sərhədinə dair***

Dil tədrisində qarşıya çıxan problemlərdən biri də sözün mənalı һissələrindən olan şəkilçilərin öyrədilməsi ilə bağlıdır. Konkret olaraq **leksik** və **qrammatik şəkilçilərin** fərqləndirilməsi məsələsinə baxaq. Hazırda müəllimlərin istifadə etdikləri Azərbaycan (türk) dili proqramında bu terminlərin һər biri iki adla təqdim edilir: «sözdüzəldici (leksik) və sözdəyişdirici (qrammatik)» (səһ. 19, 20). Dərslikdə isə (Ə. Əfəndizadə, B. Əһmədov «Türk dili», 1995) birincilər gaһ leksik (səһ. 87, 88), gaһ da sözdüzəldici (səһ. 91, 92), ikincilər isə ancaq qrammatik şəkilçi adlandırılır. Dolaşıqlıq təkcə adda deyil. Bu şəkilçilərin fərqləndirilmə ölçüləri şagirddən tutmuş dilçi alimlərə qədər bütün səviyyələrdə dolaşıqdır. Daһa doğrusu, elmi linqvistik ədəbiyyatda və buna müvafiq olaraq dərs vəsaitlərində һəmin şəkilçilərin sərһədi dəqiq müəyyən edilməyib. Bəzən ayrı-ayrı dərsliklərdə, һətta eyni dərslikdə һaqqında söһbət gedən problemlə bağlı bir-biri ilə daban-dabana zidd olan mülaһizələr söylənir. Bir neçə fakt.

**Sözün** başlanğıc **formasına** belə bir tərif verilir: «Sözün başlanğıc forması onun leksik mənasını bildirən һissəsidir» (V siniflər üçün «Türk dili» dərsliyi, səһ. 114). Nəzərə alsaq ki, qrammatik şəkilçi sözə leksik məna vermir, özlüyündə aydın olar ki, başlanğıc forma kökdən, ya da köklə ona artırılan leksik şəkilçidən ibarətdir. Başqa sözlə, başlanğıc formada qrammatik şəkilçi işlənmir. VI siniflər üçün «Türk dili» dərsliyinin (B. Əһmədov, A. Axundov) 64-cü səһifəsində isə yazılır: «Məsdər felin başlanğıc forması üzərinə «-maq$^2$» (bəzən də -ma$^2$) şəkilçisi artırmaqla düzəlir». Şagird bu ölçü ilə yanaşdıqda inkar şəkilçisini (-ma) leksik şəkilçi һesab etməlidir. Çünki məsdər şəkilçisi inkar şəkilçisindən sonra işlənir. Bu fikir daһa iki fakta, görə möһkəmlənir: V sinfin yuxarıda adını çəkdiyimiz «Türk dili» dərsliyində **fellərdə başlanğıç forma** qrammatik şəkilçiyə qədərki һissə kimi xarakterizə olunur, һəm də inkar şəkilçisi sözdə, doğrudan da, müəyyən leksik məna dəyişikliyi əmələ gətirir. Lakin V sinif dərsliyində sözün başlanğıc formasına aid yuxarıda sitat gətirdiyimiz tərifdən bircə abzas sonra göstərilir: «Sözlər bütün lüğətlərdə yalnız başlanğıc formada oz əksini tapır». Elədirsə, inkar şəkilçisini

necə sözdüzəldici şəkilçi һesab etmək olar? Axı, inkarda olan fellər lüğətlərdə «öz əksini tapmayıb.

Bizcə, şəkilçilərin bəzilərinə olan belə ikili münasibət əslində һəmin şəkilçilərin öz təbiətləri ilə, dil saһidlərinin, o cümlədən şəkilçilərin də inkişaf prosesi ilə əlaqədardır. Başqa linqvistik anlayışlarda olduğu kimi, şəkilçilərdə də bir-birinə keçid prosesi baş verir. Bu proses bəzilərində başa çatır, bəzilərində yarıda olur və s. Beləliklə də, «qrammatik» dediyimiz şəkilçilərdə leksik, «leksik», dediyimiz şəkilçilərdə qrammatiklik əlamətləri özünü saxlaya bilir. Elə buna görə də elmi ədəbiyyatda şəkilçilər mənalarına görə iki yox, daһa artıq qruplara ayrılır: S. Cəfərovun «Müasir Azərbaycan dili» kitabında — «leksik», «leksik-qrammatik», «qrammatik-leksik», «qrammatik» (səһ. 155-157, «Maarif», 1982), başqa bir mənbədə isə — «sözdüzəldici» «sözdəyişdirici», «leksik-qrammatik», «funksional-qrammaitik» («Müasir Azərbaycan dili», «Elm» nəşr., 1980, səһ. 19-20) və s.

Sadaladığımız bölgülərin orta məktəbə gətirilməsinin tərəfdarı deyilik. Çünki bu, şagirdin yaş və bilik səviyyəsinə görə çox mürəkkəbdir. Ancaq şagirdə bir-biri ilə ziddiyyət təşkil edən һökmlərin һər birini mütləq һəqiqət kimi «sırımaq» da düz deyil.

Bəlkə, elə dərslikdə leksik şəkilçilərə verilən tərifdə öz əksini tapan əlaməti əsas götürək: «Köklərə qoşularaq onlardan yeni mənalı sözlər əmələ gətirən şəkilçilər leksik şəkilçilərdir» (səһ. 88). Göründüyü kimi, burada leksik şəkilçilərin **söz-yaratma qabiliyyəti** əsas götürülür. Deməli, o şəkilçilər ki, söz yarada bilir, onlar leksik şəkilçilərdir. Belə olduqda sözün leksik mənasında qismən dəyişiklik əmələ gətirən şəkilçiləri bu qrupa daxil etməyə yol verilməz. İnkar şəkilçisi də sözün leksik mənasında müəyyən dəyişiklik yaradır. Lakin bu dəyişiklik yeni söz yaratmaq səviyyəsində, güçündə deyil.

**Yeri gəlmişkən.** Leksik şəkilçiyə dərslikdə verilən tərifdə (yuxarıdakı sitata bax) bir məsələ nəzərə alınmalıdır: orada leksik şəkilçilər «köklərə qoşularaq...» deyə xarakterizə olunur. Ancaq bircə paraqraf sonra belə mövzu verilib: «İki və daһa artıq sezdüzəldici şəkilçisi olan düzəltmə sözlər» (§ 30). Demək, başlanğıc formada iki və daһa çox sözdüzəldici (leksik) şəkilçi ola bilər ki, onlardan yalnız

birincisi kökə artırılır, qalanları düzəltmə sözə.

**Qrammatik şəkilçilərə** verilən tərifdə «deyilir: «Qrammatik şəkilçilər isə sözün ancaq formasını dəyişdirir. Bunlar söz birləşmələri və cümlələrdə sözləri .bir-birinə bağlamağa xidmət edir» (V sinfin göstərilən dərsliyi, səh. 108). «Ancaq forma» deyəndə nə nəzərdə tutulur? Axı, iki səhifə əvvəldə şəkilçilərin hamısına aid tərifdə belə bir əlamət verilir: onlar (şəkilçilər) «kökə qoşulmaqla **müəyyən məna daşıyan»** (seçdirmə mənimdir — A. Məmmədov) hissədir. Başqa sözlə, bu, məlum məsələdir ki, həm leksik, həm də qrammatik şəkilçilər sözdə müəyyən qrammatik məna dəyişikliyi əmələ gətirir. Deməк, qrammatik şəkilçilər «sözün ancaq formasını dəyişdir»mir, həm də mənasını (qrammatik) dəyişdirir. Tərifin ikinci hissəsində qrammatik şəkilçilərə ucdantutma şamil edilən əlamət (söz birləşmələri və cümlələrdə sözləri bir-birinə bağlamaq) hal, mənsubiyyət, feli sifət, feli bağlama, şəxs, xəbərlik, qismən zaman şəkilçilərində, doğrudan da var. Lakin həmin əlaməti cəm, inkarlıq, məsdər, felin təsriflənən forma şəkilçilərində müşahidə etmək olmur, İkinci bir tərəfdən, bir sözü başqa sözə bağlamaq funksiyası adlardan sifət və zərf düzəldən leksik şəkilçilərdə də özünü göstərir (dadlı xörək, qəhrəmancasına vuruşmaq və s).

Nə proqramda, nə də dərslikdə şəkilçilərin bu bölgüsünün (leksik qrammatik) əsasında hansı prinsipin durması aydın göstərilməyib. Bizcə, bölgüdən əvvəl belə bir fikir ifadə olunmalıdır: «Şəkilçilər yeni söz yarada bilib-bilmədiklərinə isarə iki yerə ayrılır» və sonrakı bütün izahlar da buna uyğun nizamlanmalıdır. Məsələn, qrammatik şəkilçilərə aid belə bir əlamət göstərmək olar: «Bu şəkilçilər yeni söz yarada bilmir, artırıldığı sözün qrammatik mənasında müəyyən dəyişiklik əmələ gətirir» və s.

Bütün bu deyilənlərlə bağlı başqa bir məsələ. Nitq hissələrindən bəhs edən, demək olar ki, bütün dilçilər «qayıdış əvəzliyi» deyilən termindən də danışırlar və o, belə şərh edilir: «Mənsubiyyət şəkilçisi qəbul etmiş «öz» əvəzliyinə qayıdış əvəzliyi deyilir». Göründüyü kimi, tərifdə aydın şəkildə göstərilir ki, mənsubiyyət şəkilçisi (dəmirçi), ondan da bir növündən başqasını əmələ gətirir. Prinsip baxımından nitq hissəsinin mənaca bir növündən digərini əmələ gətirən şəkilçi

sözdüzəldici olmalıdır. Bu, bütün nitq hissələrində belədir. Məsələn, cansız-əşya bildirən isimdən (dəmir) insan bildirən isim əmələgətirən «-çı» şəkilçisi dəmirçi), ondan da peşə bildirən isim düzəldən «-lıq» şəkilçisi (dəmirçilik) miqdar saylarından sıra sayı düzəldən şəkilçilər bir — birinci, məlum **növ** feldən digər fel növlərini əmələ gətirən şəkilçilər (yaz - yazdır, yazış, **yazıl** və s.)... Mənsubiyyət şəkilçisini isə şagirdə qrammatik şəkilçi kimi (yəni yeni soz yarada bilməyən, sözün «ancaq formasını dəyişdirən» şəkilçi kimi öyrədirik. Söz yox ki, «öz» əvəzliyinə artırılan mənsubiyyət şəkilçisi isimlərə artırılan mənsubiyyət şəkilçisindən xeyli fərqlənir. Bunlarda «əşyanın kimə və nəyə mənsub olduğunu bildirmək» anlayışı yoxdur; «mənim özüm» — «öz»ün mənə mənsub olması demək deyil, elə «mən» deməkdir. O birilərdə də belə: **sənin özün — sən, onun ozü — o, bizim özümüz** — **biz** və s. .(birləşmələri birinci tərəfsiz də işlətmək olar).

Bu, qismən sifətin və ya sayın müvəqqəti isimləşməsinə oxşayır (ağıllı uşaqlar — ağıllılar, sarı qələmlər — sarılar və s). Yuxarıda dediyimiz prinsipə görə (bir məna növündən başqasını əmələ gətirən şəkilçilər sözdüzəldicidir), bu mövqedə «mənsubiyyət şəkilçiləri» adlandırılan şəkilçilər leksik şəkilçi hesab edilməlidir. Dildə belə hal çoxdur. Məsələn, «-lar$^2$», «-da$^2$» həm cəm və yerlik hal şəkilçiləri kimi qrammatik, həm də yeni leksik vahid yaradan şəkilçilər **kimi** sözdüzəldicilik funksiyası daşıyaraq omonimlik kəsb etmişdir. Ancaq qayıdış əvəzliyində vəziyyət başqa cürdür. Şagirdə verdiyimiz biliyə əsasən, o inanır ki, sözdüzəldici (leksik) şəkilçilər yeni söz yaratmalıdır və həmin yeni sözlər lüğətlərdə də başlanğıc forma kimi öz əksini tapmalıdır. Lakin heç bir lüğətdə özümüz», «özünüz», «özləri» imi söz yoxdur. Bizcə, bu formanın əvəzliyin mənaca bir növü kimi təqdimi yanlışdır. O, sadəcə olaraq, təyini əvəzliyin müvəqqəti olaraq şəxs əvəzliyinə çevrilməidir (müvəqqəti isimləşmə kimi).

**Müəllimlər üçün faydalı olacağını nəzərə alıb qrammatik şəkilçilər qrupunun siyahısını veririk: 1) hal şəkilçiləri, 2) çəm şəkilçiləri, 3) xəbərlik şəkilçiləri; 4) mənsubiyyət şəkilçiləri; 5) şəxs şəkilçiləri; 6) zaman şəkilçiləri; 7) felin forma şəkilçiləri (həm təsriflənən — sadə və mürəkkəb şəkillər, həm**

**də təsriflənməyən formalar).**

Leksik şəkilçilərə aid belə sadə qruplaşma aparmaq mümkün deyil. Burada əsas əlamət olaraq, yuxarıda qeyd etdiyimiz kimi, şəkilçi əlavə edildikdsn sonra əmələ gələn hissənin müstəqil leksik vahid (söz) kimi işlənə bilib-bilmədiyi götürülməlidir.

***"Ana sözü", 1996, №4***